# Qəbələ sürətli inkişafın yeni mərhələsində

## Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2014-cü ildə sosial-iqtisadi inkişafın yekunlarına dair hesabat məruzəsi

(Əvvəli 8-ci səhifədə).

**Hörmətli yığıncaq iştirakçıları!**

Nazirlər Kabinetinin iclasındakı yekun nitqində “2014-cü ildə müşahidə olunan proseslər göstərir ki, bu il dünya iqtisadiyyatı üçün çox ağır il olacaq”-deyən cənab İlham Əliyev neftin qiymətinin aşağı düşməsi ilə 2015-ci ili təbii sərvətlərlə zəngin olan ölkələr üçün bir sınaq dövrü kimi xarakterizə etmişdir.

“Lakin düşünülmüş iqtisadi siyasət, şaxələndirmə prosesi, xalqla iqtidar arasında olan birlik bu ilin də xalqımız üçün uğurlu olacağına təminat verir”-deyərək ölkə başçısı 2015-ci ildə qeyri-neft sektorunun inkişafının diqqət mərkəzində saxlanılacağına toxunmuşdur. Cənab Prezident sahibkarlara güzəştli şərtlərlə kreditlərin verilməsinin davam etdiriləcəyini, hər bir dövlət qurumunda idarəetmə prinsiplərinin təkmilləşdiriləcəyini, israfçılıq hallarının qarşısının alınacağını, ölkə üçün zəruri olan, iqtisadi və sosial əhəmiyyəti ilə seçilən layihələrin icrasının davam etdiriləcəyini bildirmişdir.

Eləcə də cənab İlham Əliyev hər bir rayonda sənaye mərkəzlərinin yaradılması istiqamətində tapşırıqların icrası, 2015-ci ildə böyük metallurgiya kompleksinin tikintisi, dövlət investisiyalarının dayanıqlı inkişafa yönəldilməsi, ekoloji məsələlərin həlli, nəqliyyat layihələrinin həyata keçirilməsinin davam etdirilməsi ilə bağlı fikirlərini bildirmişdir. Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinin artıq başa çatdırıldığını, hava nəqliyyatı və gəmiçilik sahəsində uğurlu layihələr icra olunduğunu deyən cənab Prezident ötən il “Cənub” qaz dəhlizinin təməlinin qoyulmasını tarixi hadisə adlandırmışdır.



*Qəbələ VI Beynəlxalq Musiqi Festivalının açılışında.*



Dövlət başçısı bir neçə aydan sonra Bakıda keçiriləcək ilk Avropa Oyunlarına hazırlıq işlərinin yüksək səviyyədə aparıldığını, Təşkilat Komitəsinin fəal işlədiyini bildirmişdir. “Avropa Oyunlarının standartları Bakıda müəyyən olunacaq”-deyən cənab İlham Əliyev qeyd etmişdir ki, bu sadəcə idman tədbiri deyil, idmançıların və qonaqların ölkəmizlə, burada gedən inkişaf prosesləri ilə tanış olmaları baxımından böyük əhəmiyyətə malikdir.

**Hörmətli yığıncaq iştirakçıları!**

2014-cü ildə rayonumuzda görülən işlər və bu işlərin yerinə yetirilməsi istiqamətində rayon icra hakimiyyətinin, idarə, müəssisə və təşkilatların fəaliyyəti barədə Sizə qısa məlumat verdim.

2015-ci ildə qarşımızda daha mühüm vəzifələr durur.

Məruzənin sonunda əminliklə bildirmək istəyirəm ki, Qəbələ Rayon İcra Hakimiyyəti 2015-ci ildə də yeni uğurların əldə olunması, rayonumuzun daha sürətlə inkişaf etdirilməsi istiqamətində fəaliyyətini genişləndirəcək, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstəriş və tövsiyələrinin, eyni zamanda qanunvericiliklə üzərinə düşən vəzifələrin yerinə yetirilməsinin təmin edilməsi ilə bağlı lazım gələn bütün tədbirləri həyata keçirəcəkdir.

**Hörmətli yığıncaq iştirakçıları!**

İcazə verin Sizin hər birinizin, bütün qəbələlilərin adından ölkə başçısı cənab İlham Əliyevi əmin edim ki, biz həmişə olduğu kimi vətənimizə, dövlətimizə, xalqımıza sədaqətlə xidmət edəcək, 2015-ci ili də uğurlu nailiyyətlərlə başa vuracağıq.

---

***İnzibati ərazi nümayəndəliklərində hesabat yığıncaqları***

# Nohurqışlaq kəndi sosial-iqtisadi inkişaf yolundadır

***2015-ci ilin yanvar ayında rayon icra hakimiyyətinin qrafiki əsasında inzibati ərazi nümayəndəliklərində ötən il görülmüş işlərin yekunları və qarşıda duran vəzifələr barədə ənənəvi hesabat yığıncaqları keçirilmişdir.***

***Aşağıda Nohurqışlaq kənd inzibati ərazi nümayəndəliyində keçirilmiş hesabat yığıncağı haqqında məlumat dərc edirik.***

Yanvar ayının 26-da Qəbələ Rayon İcra Hakimiyyəti başçısının Nohurqışlaq kənd inzibati ərazi nümayəndəsi Babək Məsimov 2014-cü ildə kənddə bütün sahələr üzrə görülmüş işlərə dair kənd fəalları və ictimaiyyətin nümayəndələri qarşısında hesabat verdi. Nümayəndənin deməyə sözü vardı. Çünki son illər Norurqışlaq kəndi rayonun yaşayış məntəqələri içərisində öz inkişaf tempi ilə seçilən kəndlərdən biri kimi öz yerini qoruyub saxlayır. İldən ilə kəndin inkişaf tempi yeni vüsət alır. Kəndin abad yolları, son vaxtlar daha zövqlə tikilmiş yaşayış evləri, sosial obyektlər dediklərimizi sübüt edir.

İcra nümayəndəsi öz məruzəsində ilk öncə Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən nəhəng sosial iqtisadi layihələr barədə tədbir iştirakçılarına məlumat verdi. Sonra ötən il rayonumuzda görülmüş işlər barədə danışdı. 2014-cü ildə rayonumuzun tarixində ən əlamətdar hadisələri xatırladan natiq bildirdi ki, möhtərəm Prezidentimizin ötən il iki dəfə rayonumuza səfər etməsi, çoxsaylı sosial-iqtisadi obyektlərin açılışında iştirakı ən yaddaqalan hadisələrdəndir. Möhtərəm Prezidentimizin Nohurqışlaq kəndinin yaxınlığında yerləşən Yengicə kəndində böyük sağlamlıq və turizm, istirahət kompleksinin işinə xeyir-dua verməsi Nohurqışlaq kəndinin həyatında da mühüm rol oynayır.

(Ardı 10-cu səhifədə).